**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad.H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ADİL OQTAY OĞLU ADİLOV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA DAXİLİ TURİZM VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**5401.01 – iqtisadi coğrafiya**

**Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **H.B.Soltanova**
c.e.n. dosent

**Rəsmi opponentlər:** **V.Ə. Əfəndiyev**
c.e.d. prof. əməkdar elm xadimi

c.e.n. **R. N. Kərimov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti Coğrafiya və QÇH fakültəsinin "İqtisadi coğrafiya və CTM" kafedrası

Müdafiə 29 oktyabr 2013-cü il saat $14^{00}$-da AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya işi ilə Azərbaycan MEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar (ünvan: Az. 1143. Bakı, H.Cavid prospekti 31, 8-ci mərtəbə).

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az.1143. Bakı, H.Cavid prospekti 31. Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 28 sentyabr 2013-cü ildə göndərilmişdir.

**D 01.091 Dissertasiya Şurasının elmi katibi,**
**coğrafiya elmləri namizədi, dosent:** **Həsənov M.S.**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsinin zəruriliyi dövlət və ictimaiyyət tərəfindən qəbul edilmişdir. Bunu turizm sektoru üzrə hökumət və kommersiya strukturlarının yaradılması, qanunvericilik aktlarının qəbul edilməsi, beynəlxalq turizm əlaqələrinin genişləndirilməsi istiqamətində görülən işlər sübut edir.

Respublikamızda daxili turizmin inkişaf etdirilməsi xüsusi maraq doğurur. Bu təbiidir, çünki, daxili turizmin inkişaf etdirilməsinin əhalinin istirahəti və müalicəsinin təşkilində mühüm rolu və əhəmiyyəti vardır. Son illər əhalinin gəlir mənbələrinin artması, həyat səviyyəsinin yüksəlməsi ölkədə daxili turizm imkanlarından istifadəni aktuallaşdırır. Azərbaycan geniş turizm imkanlarına malikdir. Lakin bu imkanlardan turizmdə (o cümlədən daxili turizmdə) lazımınca istifadə olunmur.

Turizm sektorunu prioritet sahə kimi qiymətləndirən Respublika Prezidentinin "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" haqqında müvafiq sərəncamlarında ölkənin turizm potensialından səmərəli istifadə olunması, onun inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Dövlət Proqramlarında qarşıya qoyulmuş məsələlərin turizm məqsədilə araşdırılması şübhəsiz ki, elmi tədqiqat işlərinin aparılmasını tələb edir. Bu baxımdan respublikamızda daxili turizm potensialının öyrənilməsi mövzunun aktuallığını göstərir.

Müasir dövrdə ölkənin ayrı-ayrı bölgələrində daxili turizm potensialının öyrənilməsi, onlardan səmərəli istifadə yollarının araşdırılması və onun ərazi təşkilinin müəyyən edilməsi hərtəəfli öyrənilməli və inkişaf etdirilməlidir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2009-2013-cü illər)", 27 fevral 2007-ci il tarixli "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında müvafiq sərəncamlarında bölgələrdə turizm ehtiyatlarından səmərəli istifadə olunması məsələləri öz əksini tapmışdır. Dövlət Proqramlarında turizm ehtiyatlarından istifadənin prioritet sahə kimi verilməsi bölgələrin daxili turizm potensialından istifadənin aktuallığını sübut edir.

Mövzunun aktuallığını sübut edən amillərdən biri də 2010-2014-cü

illəri əhatə edən “Turizmin inkişafına dair Dövlət Proqramı”nda regionlarda aparılan iqtisadi islahatlar çərçivəsində turizm sənayesinin səmərəli təşkilinə imkan yaradılmasıdır. Turizm sənayesinin inkişafı ilə daxili turizm bazarı imkanlarının elmi cəhətdən əsaslandırılmış halda öyrənilməsi isə mühüm problemlərdən biri olaraq qalır. Bu problemlərin araşdırılması ilə bölgələrdə insanların istirahətinin səmərəli təşkili yollarını müəyyən etmək mümkündür.

**Tədqiqat obyekti** – Azərbaycan Respublikasının daxili turizmi, predmeti isə daxili turizmin inkişafı imkanları, istiqamətləri və perspektivləridir.

Tədqiqatın aparılmasında çöl tədqiqatları, statistik təhlil, tarixi-coğrafi, müqayisə, kartoqrafik və digər üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədini turizm ehtiyatlarından səmərəli istifadə edilməsində metodoloji prinsiplərə əsaslanaraq, respublikamızda daxili turizm imkanlarının araşdırılması, onun inkişafı istiqamətlərinin müəyyən edilməsi və perspektivlərinin öyrənilməsi təşkil edir. Bu məqsədlə aşağıdakı məsələlərin həlli nəzərdə tutulmuşdur:

- turizm bazarının öyrənilmə istiqamətləri;
- daxili turizmin davamlı inkişafını müəyyən edən amillərin təhlili və bu sahədə maneələrin aradan qaldırılması yolları;
- Azərbaycanda turizm bazarının formalaşmasında onun seqmentlərinin rolunun elmi cəhətdən əsaslandırılması;
- turizmdə infrastruktur və xidmətlərin optimal təşkili istiqamətlərinin müəyyən edilməsi;
- Müasir dövrdə Azərbaycanın bölgələrində daxili turizmin ərazi təşkilinin sosial-iqtisadi təhlili;
- Azərbaycanda daxili turizmin inkişafını şərtləndirən amillərin nəzərə alınması ilə kompleks təkliflərin hazırlanması.

**Problemin öyrənilmə səviyyəsi.** Turizmin inkişafının tarixi, regional aspektləri, turizm xidmətləri bazarının seqmentləri haqqında xarici ölkələrin tədqiqatçıları A.P.Duroviç, E.N.İlina, V.A.Kvartalnov, A.S.Kuskov, N.S.Mironenko, V.S.Quldev, M.B.Birjakov, İ.T.Balabanov, F.Kotler, C.R.Uoker və b. tərəfindən öyrənilmişdir. Azərbaycanda bu məsələlər B.Ə.Budaqov, M.A.Müseyibov, C.A.Məmmədov, B.Ə.Bilalov, Ə.Q.Əlirzayev, S.H.Rəhimov və digərlərinin əsərlərində nəşr olunmuşdur.

Azərbaycanın bəzi regionlarında (Abşeron, Xəzərsahili və b.) turizm-rekreasiya ehtiyatlarından istifadənin coğrafi məsələlərinin öyrənilməsinə dair A.H.Salmanov, H.B.Soltanova, V.S.Dərgahov, S.M.Zülfüqarova

tərəfindən tədqiqatlar aparılmışdır. Lakin respublikamızda daxili turizmin davamlı inkişafının təmin edilməsi məqsədilə turizm xidmətləri bazarının kompleks öyrənilməsinə və perspektivlərinin müəyyən edilməsinə zərurət yaranmışdır.

**Tədqiqatın nəzəri, metodoloji əsaslarını** Azərbaycan Respublikası Prezidentinin turizm və onunla əlaqəli sahələrə dair müvafiq sərəncamları, Dövlət Proqramları, Mədəniyyət və Turizm Nazirliyinin, digər səlahiyyətli dövlət qurumları və müvafiq strukturların əmr və qərarları, turizm fəaliyyətinə aid dəyərli tədqiqatları ilə tanınan alimlərin fikirləri və s. təşkil edir.

Dissertasiya işində çöl tədqiqatları, statistik təhlil, tarixi-coğrafi, müqayisə, kartoqrafik və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- turizm bazarında tələb və təklifi formalaşdıran kompleks amillərin müəyyən edilməsi;
- daxili turizmdə sahibkarlıq subyektlərinin istiqamətlərinin və turizm-rekreasiya ehtiyatlarından istifadənin optimal variantlarının müəyyənləşdirilməsi;
- daxili turizm xidmətləri bazarının inkişaf istiqamətləri və təkmilləşdirilməsi modelinin verilməsi;
- daxili turizmin inkişaf istiqamətlərinin proqnozlaşdırılması.

Tədqiqat işinin **elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- turizm bazarında tələbatın qiymətləndirilməsi əmsalı təklif edilmişdir;
- daxili turizmdə təbii və tarixi-mədəni ehtiyatlardan istifadənin istiqamətləri və renta göstəriciləri müəyyənləşdirilmişdir;
- Azərbaycan Respublikasında istirahət və kurort mərkəzlərinin inkişaf istiqamətləri: kompleks kurort xidmətləri (SPA), yeni turizm marşrutları və s. təklif edilmişdir;
- daxili turizm fəaliyyətində yerləşmə müəssisələrindən optimal istifadə imkanları və kütləvi turizmin inkişafı üçün regionlarda turist tipli otellərin genişləndirilməsi müəyyən edilmişdir;
- daxili turizm xidmətləri bazarının təhlili nəticəsində Azərbaycanın regionlarında mövcud problemlər aşkar olunmuş, respublika prezidentinin turizmin inkişafına dair sərəncamları nəzərə alınmaqla turizm ehtiyatlarından istifadənin və xidmətlərin təkmilləşdirilməsi istiqamətləri təklif olunmuşdur;
- daxili turizmin perspektiv inkişaf istiqamətləri müəyyən edilmiş və

turizmin müxtəlif növləri üzrə (istirahət, sağlamlıq, kənd turizm və s.) modeli verilmişdir;

**Tədqiqat işinin təcrübi əhəmiyyəti.**

Dissertasiya işindəki nəticə, təklif və tövsiyələrdən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bölgələrdəki turizm informasiya mərkəzləri, mədəniyyət və turizm şöbələri, turizm şirkətləri istifadə edə bilər. Elmi nəticələrdən respublikanın ali məktəblərində turizm ixtisası üzrə təhsil alan tələbə və magistrlar, bu sahədə tədqiqat işi aparan elmi işçi və aspirantlar da yararlana bilər.

**İşin aprobasiyası və nəşri**. Dissertasiya işinin əsas müddəaları və əldə edilmiş nəticələri haqında BDU-nun Coğrafiya fakültəsinin elmi seminarlarında, BDU-nun Coğrafiya fakültəsində akad. H.Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Ekologiya: Təbiət və Cəmiyyət problemləri" Beynəlxalq Konfransında, Azərbaycan Turizm İnstitutunda "Turizm və rekreasiya: problemlər və perspektivlər" mövzusunda keçirilmiş II Respublika elmi-praktik konfransında məruzə edilmişdir. Mövzu üzrə müəllifin 10 elmi məqalə və tezisi çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. 135 adda mənbədən ibarət ədəbiyyat siyahısı, 7 cədvəl, 9 şəkil və 3 xəritə-sxem daxil olmaqla, dissertasiya işinin ümumi həcmi 164 kompüter səhifəsini əhatə edir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi, vəzifələri, nəzəri və metedoloji əsasları, obyekti və predmeti müəyyənləşdirilir, elmi yeniliyi və praktiki əhəmiyyəti şərh olunur və aprobasiyası qeyd olunur.

**Birinci fəsildə Azərbaycan Respublikasında turizm bazarı və onu şərtləndirən amillər öz əksini tapmışdır.** Turizm bazarı tələb və təklif qanunauyğunluqları əsasında formalaşır. Tələb və təklif qanunu tələblə təklifin eyniliyini və onların bir-birinə uyğunlaşmasının zəruriliyini əks etdirir.

Turizm bazarı digər bazarlar kimi tələb və təklif qrupuna əsasən stabilləşir. Əgər təklif tələbi üstələyirsə, turizm məhsulunun qiyməti

enməyə başlayır. Bu da turizm müəssisələrinin fəaliyyətinin azalmasına gətirib çıxarır. Əgər tələb təklifdən üstündürsə, qiymət artmağa başlayır və bu, turizm müəssisələrini daha çox turizm məhsulu istehsal etməyə stimullaşdırır. Qiymətlərin artıb-enməsindən sonra, onların müəyyən tarazlığı yaransa da, çox zaman lazım olan nəticə alınmır. Araşdırmalardan aydın olur ki, turizm tələbatı çoxsaylı amillər əsasında formalaşır. Bu amillərin təsirilə turizm tələbatı artıb-azala bilir. Bu amillər tədqiqatçılar tərəfindən müxtəlif cür qruplaşdırılır (V.B.Saprunova və b.). Turizm xidmətləri bazarının formalaşmasında iştirak edən müəssisələrin müxtəlifliyini nəzərə alaraq, onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Sosial xidmət və turizmlə bağlı olan infrastruktur sahələri;
- İstehsal və təminat xidmətləri;
- Turoperatorlar, turagentliklər və kontragentlər.

Turizm biznesinin səmərəli həyata keçirilməsində problemlərdən biri mövcud tələbə uyğun olaraq təklifin irəli sürülməsidir. Təklif irəli sürülərkən elə etmək lazımdır ki, qalıq və çatışmazlıq olmasın. Bu baxımdan turizm xidmətləri təklif edən bütün müəssisələr və şəxslər üçün tələbatın müəyyənləşdirilməsi və proqnozlaşdırılmasının əhəmiyyəti böyükdür. Real tələbatın öyrənilməsi mühüm şərtdir. Bu isə gələnlərin sayı, turgünlərin və gecələmələrin sayı, gələn 1 nəfər turistə düşən orta xərcin miqdarı ilə myəyyən edilir. Potensial tələbat gələnlərin mümkün sayına görə hesablanır.

Respublikamızın turizm rayonlarından hər biri xidmət üçün konkret sayda adam qəbul edə bilər. Tələb aşağı düşdükcə turizm təklifi praktiki olaraq qeyri-elastik olur, çünki, əsas vəsaitlərin əksər hissəsi dar ixtisaslaşmış obyektlərə (restoran, mehmanxana və s.) qoyulduğundan başqa məqsədlər üçün istifadə edilə bilmir. Turizm müəssisələrinin sahibləri əvvəlki rentabelliyi təmin etmək iqtidarında olmayan qiymətlərlə xidmət göstərməkdə davam edirlər ki, bu da bəzən həmin müəssisənin iflası ilə nəticələnir. Digər tərəfdən, turizmdə mövsümilik turist axının həcminə təsir edir. Respublikamızın müxtəlif rayonlarında turizm xidmətlərinə olan tələbin qeyri-bərabərliyi mövsümdən asılı olaraq çox dəyişkəndir. Həmin dəyişkənliyi riyazi hesablamalarla aşkar etmək mümkündür. Bu məqsədlə aşağıdakı qiymətləndirmə əmsalını təklif edirik:

**W = G maks. / Go x 100%,** Burada:

G maks. – maksimum turist axını olan ayda gecələmələrin sayı,

Go - orta aylıq gecələmələrin sayıdır.

Turizm xidmətlərinə olan tələbin qeyri-bərabərliyi bütövlükdə turizmin iqtisadiyyatına mənfi təsir göstərir. Turizm təşkilatçıları xidmətlər təklifinin həcmini müəyyənləşdirərkən ilk növbədə nəzərdə tutulan istehlakın həcmi haqqında dəqiq məlumata malik olmalıdırlar.

Azərbaycanda daxili turizm bazarının formalaşmasına gec başlanılsa da, bunun üçün tarixi zəmin yaranmışdır. Ümumiyyətlə, Azərbaycanda turizmin inkişafını tarixi-coğrafi şəraitdən asılı olaraq 5 mərhələyə bölmək olar:

1. Qədim və orta əsrlərin səyahətləri;
2. Böyük coğrafi kəşflərdən XIX əsrin sonlarına qədər olan mərhələ;
3. XIX əsrin sonu, XX əsrin ortalarına qədər olan mərhələ;
4. XX əsrin ortalarından sonrakı mərhələ;
5. Müstəqillik dövründən sonrakı mərhələ.

Bu mərhələlərin hər biri turizmin təşkilində səciyyəvi xüsusiyyətləri ilə seçilir. Qədim dövr və orta əsrlərdə turizmin yaranması ticarətlə bağlı olmuş və karvansaraların inkişafına təkan vermişdir. Bu mərhələdə Böyük İpək Yolunun bərpası turizmin inkişafında əhəmiyyətli rol oynamışdır. Apardığımız çoxsaylı araşdırmalar göstərir ki, Azərbaycanda İpək Yolu istiqamətində mövcud olan şəhərlərdə 2300-dən çox karvansara, gecələmə yerləri, anbarlar mövcud olmuşdur. Həmin dövrdə Bakı, Şamaxı, Bərdə, Gəncə, Şuşa, Beyləqan, Təbriz, Ərdəbil, Xoy şəhərlərində ticarət inkişaf etdikcə, yeni karvansaralar, qonaq evlərinin sayı artmağa başlamışdı. Azərbaycanda kütləvi turizmin başlanğıcı 1908-ci ilə aid edilir. XX əsrin 30-cu illərindən başlayaraq, turist bazaları və istirahət mərkəzləri şəbəkəsi genişləndirildi (Bakı, Abşeron, Hacıkənd, Göy-göl, Gəncə, Nabran, Naftalan, Qəbələ, Zaqatala və s.). Müstəqillik illərinədək Azərbaycanda turizmin inkişaının ən yüksək səviyyəsi 1987-ci ildə olmuşdur. Həmin ildə daxili turizm hərəkatında 2,5 mln. nəfər iştirak etmiş, respublikaya xarici ölkələrdən 50, sabiq sovet respublikalarından 250 minə yaxın turist gəlmişdir. Müasir dövrdə Azərbaycan dövlətinin turizm siyasəti bu sektorun inkişafını stimullaşdırır. Respublika Prezidentinin 27 avqust 2002-ci il tarixli 1029 saylı "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı", 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikasının regionlarının 2004-2008-ci illərdə inkişafının Dövlət Proqramı" fərmanları turizmin inkişafına xüsusi təkan vermişdir. Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi üçün turagent və turoperatorların fəaliyyəti vacib şərtlərdəndir. 2012-ci ilin məlumatına görə, Azərbaycanda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən lisenziya almış 221 turizm şirkəti vardır.

Azərbaycan Respublikası turizmin inkişafı üçün zəruri olan zəngin təbii-coğrafi və tarixi-mədəni rekreasiya ehtiyatlarına malikdir. Tədqiqat işində təbii ehtiyatlar turizm baxımından öyrənildiyinə görə iqlim elementlərinin təhlili müxtəlif ərazilər üzrə aparılmışdır. Bu ərazilər respublikamızda daha çox turist cəlb edən bölgələrdir. Abşeron sahilləri (xüsusilə şimal sahili), Şəki-Zaqatala-Marxal, İlisu, Dağlıq Şirvanda Pirqulu, Çuxuryurd, Bədo, Basqal, Xəzər sahillərində Yalama-Nabran, Kürdili, Lənkəran sahilləri, Naxçıvan MR-da olan istirahət və turizm yerlərinin mikroiqlim şəraiti turizm baxımından təhlil olunmuşdur.

Azərbaycanda mineral və termal suların rekreasiya əhəmiyyəti vardır. Mineral sular əsasən Naxçıvan MR, Gədəbəy, Kəlbəcər, Şuşa, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran, Astara, Masallı bölgələrində, termal sular isə Lənkəran, Astara, Masallı rayonlarında və Abşeronda yayılmışdır. Respublikada mineral və termal suların ümumi debiti gün ərzində 1,2-1,5 mlrd. litr təşkil edir. Termal sulardan əsasən Abşeronda olan sanatoriyalarda istifadə olunur.

Azərbaycanın Xəzərsahili çimərliklərinin dayazlığı, suyunun şəffaflığı, mövsüm dövründə temperaturun 20-25$^0$S-dən yüksək olması kütləvi istirahətin təşkili üçün əlverişlidir. Xəzər sahillərində dəniz suyunun hərarəti yerləşdiyi ərazidən asılı olaraq 18-26$^0$S təşkil edir, çimərlik mövsümü isə 120-160 gün davam edir. Xəzərsahili çimərliklərdə istirahət mövsümü dövründə küləkli günlərin təkrarlanması, Lənkəran və Yalama-Nabran sahillərində müşahidə edilən rütubətli günlər mövsümün qısalmasına səbəb olur. Xəzərsahili qumlu çimərliklər müalicəvi xüsusiyyətlərinə və suyun temperaturuna görə Qara dəniz sahili çimərliklərdən üstündür. Bununla yanaşı, çimərlik mövsümünün davamiyyəti Xəzər sahillərində bəzən 160 günə qədər davam etsə də, Qara dəniz sahillərində 120-130 gündən çox olmur.

Azərbaycan tarixi-memarlıq abidələri ilə zəngindir. Ölkəmizdə ilk insan məskənlərindən başlamış orta əsrlərə aid nadir memarlıq abidələri mövcuddur ki, bunların sayı 6 mindən çoxdur. Azərbaycanda olan tarixi və memarlıq abidələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İslamaqədərki dövrü əhatə edən tarixi-memarlıq abidələri və kurqanlar;
2. İslam mədəniyyətini əks etdirən məscid, minarə, mədrəsələr və s;
3. Azərbaycanın memarlıq sənətini əks etdirən şəhərsalma abidələri.

Azərbaycan tarixi-memarlıq abidələrlə zəngin olsa da, onlaın turizm məqsədi ilə müstəqil istifadəsi səmərəli sayılmır. Belə ki, ölkəmizdə

mövcud olan tarixi-memarlıq abidələrinin əksəriyyəti (Abşeron, Gəncə və Şəki istisna olmaqla) pərakəndə şəkildə yayılıb və bu sahədə memarlıq abidələri ilə zəngin olan digər ölkələrlə rəqabət apara bilməz. Ölkəmizdə müasir dövrə gəlib çatan və öz orijinallığını saxlayan tarixi-memarlıq abidələrinin XVIII-XIX əsrlərə aid olmasını nəzərə alaraq, Aralıq dənizi hövzəsi ölkələri ilə müqayisədə geri qaldığını söyləyə bilərik. Bununla yanaşı abidələrin mövcud vəziyyətinin qeyri-qənaətbəxş səviyyədə olması, öz əvvəlki görkəmini itirməsi də qetd edilməlidir. Müqayisə üçün göstərmək olar ki, Türkiyəyə səfər edən turistlərin 32-40%-ni tarixi-memarlıq abidələrinə tamaşa etmək üçün gələnlər təşkil edir. Onların da əsas hissəsi tarixi-memarlıq abidələrinin daha çox mövcud olduğu Mərmərə və Egey dənizlərinin sahillərinə, iri şəhərlərə istiqamətlənir.

**İkinci fəsildə "Daxili turizmin davamlı inkişafının regional aspektləri" araşdırılır.** Azərbaycanda daxili turizm bazarı 2002-ci ildən sonra sürətlə formalaşmağa başlamışdır. Bu mərhələdə turizmin daxili strukturunda ərazi və hüquqi dəyişikliklər baş vermiş, bölgələrdə istirahət zonaları genişlənmişdir. Daxili turizmlə məşğul olan təşkilatlara hüquqi baxımdan özəl istirahət mərkəzləri və şirkətləri, Həmkarlar təşkilatına məxsus olan turist bazaları və istirahət mərkəzləri, həmçinin müxtəlif müəssisələrə məxsus istirahət yerləri, "Kurort" Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriya kompleksləri aid edilir. Ölkəmizdə həm daxili, həm də xarici turizm xidmətlərinin 90%-dən çoxu özəl təşkilatlara məxsusdur. O cümlədən, turizm sahəsinə yönəldilən investisiyaların demək olar ki, hamısı özəl təşkilatların payına düşür. Hazırda ölkədə fəaliyyət göstərən istirahət mərkəzlərinin 93%-i, mehmanxanaların 90%-i, motel və kempinqlərin 86%-i sahibkarlara məxsusdur.

Respublikamızda daxili turizmin inkişafında mühüm amillərdən biri balneoloji turizm ehtiyatlarıdır. Tədqiqat işində respublikada yayılan mineral və termal suların bölgələr üzrə təsnifatı aparılmışdır. Azərbaycanda balneoloji rekreasiya ehtiyatlarından istifadə qənaətbəxş səviyyədə deyildir. Bu ehtiyatların cəmi 5-10%-i kurort müəssisələrində istifadə olunur. Respublikada "Kurort" Səhmdar Cəmiyyətinin tabeliyində 11124 yerlik balneoloji sanatoriya kompleksi vardır. Həmçinin, özəl şirkətlərə məxsus müalicə vannaları, balneoloji müəssisələrdə ümumi yerlərin sayı 1320-yə çatır. Özəl balneoloji kurortlarda xidmət müalicə ilə yanaşı, digər istirahət növləri ilə birlikdə aparılır ki, bu da onları sanatoriya-kurort kompleksi adlandırmağa imkan vermir.

Azərbaycanda kənd turizminin inkişafı daxili turizmdə geniş

yayılmışdır. Respublikamızda kənd turizminin perspektivli bölgələri kimi Lənkəran-Astara, Şəki-Zaqatala, Quba-Xaçmaz, Qərb bölgəsi, Dağlıq Qarabağ və Naxçıvan MR-də Şahbuz rayonu (Batabat gölü) seçilmişdir. Bunun da səbəbi həmin regionlarda kənd turizminin inkişafı üçün əlverişli təbii şəraitin olması, xalqın adət-ənənələrinin, milli mətbəxinin müxtəlifliyidir (Şəkil 3).

Kənd yaşıl turizmində istehlakçı seqmentinin təhlilindən göründüyü kimi, kənd yaşıl turizmində əsas xüsusiyyət təbii mühitlə istehlakçılar arasında əlaqənin təşkilindən ibarətdir. Belə ki, kənd yaşıl turizmində əsasən şəhər əhalisi iştirak etdiyindən, turizm məhsulunun formalaşması ekoloji və kənd mühitilə birbaşa bağlı olsa da, rəqabət mühitinin yaradılması, idarəetmənin təşkili, bazar münasibətləri və s. nəzərə alınmalıdır (şəkil 1).




**Şəkil 1. Kənd yaşıl turizmində istehlakçı seqmenti**

Kənd turizminin inkişafı aşağıdakı təbii və iqtisadi amillərə əsaslana bilər:

1. Azərbaycanda mövcud 4200-dən çox kənd yaşayış məntəqəsinin 68%-nin dağlıq və dağətəyi ərazilərdə, landşaft ekzotikliyi ilə seçilən bölgələrdə olması;

2. Kənd əhalisinin regionlardan asılı olaraq özünəməxsus adət-ənənələrinin və mətbəxinin olması;

3. Tarixi kəndlərdə sənətkarlığın (dulusçuluq, misgərlik, xalçaçılıq və s.) yayılması;

4. Ölkənin ayrı-ayrı bölgələrində müxtəlif sənət və milli bayramların, folklor festivallarının keçirilməsi imkanlarının olması və s.

XX əsrin 70-80-ci illərində geniş vüsət alan ekoturizm hərəkatı milli parkların rolunu artırdı. Azərbaycanda milli parkların yaradılmasına 2003-cü ildən başlanılmışdır. Respublikamızda olan 8 Milli Park əsasən dövlət qoruqlarının bazası əsasında yaradılmışdır. Milli parkların yaradılmasında əsas məqsəd ətraf mühitin, ekoloji tarazlığın, təbiət və tarixi abidələrin qorunması şərti ilə ekoturizmin inkişafı, ekoloji maarifləndirmənin gücləndirilməsi, ölkənin zəngin təbiətinin reklamından ibarətdir. Ölkədə olan milli parklar turist marşrutlarına salınsa da, turizm məqsədilə onlardan hələ geniş istifadə olunmur. Bu baxımdan milli parklarda turizm infrastrukturunun yaradılması, onların kadr potensialının artırılması vacibdir. Respublikamızın milli parklarında xüsusi piyada cığırlarının salınması, informasiya mərkəzlərinin yaradılması, ətraf mühitlə əlaqəli kütləvi turların təşkili, velosiped turlarının müəyyən olunması, onlardan turizm məqsədilə səmərəli istifadəyə imkan verə bilər.

Turizmdə ərazilərin yüklənmə səviyyəsi təbii komponentlərin növlərinə görə dəyişir. Bununla yanaşı, yüklənmə müddətində əsas diqqət meşəlik ərazilərə, çimərliklərə yönəldilir. Ərazinin yüklənmə xüsusiyyətlərinin hüquqi, iqtisadi-planlaşdırma, təbii ehtiyatlardan ödənişli istifadə tərəfləri vardır. Rekreasiya yükünün müəyyən olunması müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmışdır. Araşdırmalar göstərir ki, çimərliklərdə hər nəfərə düşən ərazi, Qara və Aralıq dənizi sahillərində 5-15 $m^2$ təşkil etsə də, mövsüm dövründə (xüsusilə pik vaxtlarında) bu rəqəm azalaraq 1-3 $m^2$/adam təşkil edir. Azərbaycanın Xəzərsahili ərazilərində isə 1-5 $m^2$/adam olması qeyd olunur. Ölkədə turizm baxımından ən çox yüklənmə Xəzər sahillərində, alçaq dağlıq ərazilərdə və meşə landşaftı ərazilərində baş verir. Apardığımız tədqiqatlara görə mövsüm dövründə Nabran-Yalama sahillərində 1 nəfərə 5-8 $m^2$ çimərlik sahəsi, 2-3 $m^2$ qədər meşəlik düşür. Əgər Xəzərsahili ərazilərdə çimərliklərin yüklənmə səviyyəsinin 1-5 $m^2$, həmçinin hər nəfərə düşən meşəlik sahəsinin 20 $m^2$-dən çox olmasını nəzərə alsaq, Nabran-Yalama sahillərində turizm cəhətdən yüklənməsi normadan xeyli yüksəkdir.

**Üçüncü fəsildə "Turizm xidmətləri bazarının inkişaf perspektivləri" araşdırılır.** Ölkəmizdə turizm xidmət bazarının sosial-iqtisadi amillərin ərazidə kommunikasiya, nəqliyyat xidmətləri, istirahət

mərkəzlərinə gedən yolların, həmçinin, turist marşrutları keçən ərazilərdə yolların səviyyəsi, kommunal xidmətlər, işçi qüvvəsi ilə təminat daxildir. Hazırda Respublikamızda turizm xidmətləri üçün lisenziya alan 221 şirkətdən əksəriyyəti xarici turizm üzrə ixtisaslaşmışdır.

Azərbaycanda daxili turizmin inkişafına yönəldilmiş turoperatorlar daha çox ekoloji, idman, alpinizm, müxtəlif istirahət turları təşkil edir. Bölgələrdə yerləşən iri istirahət mərkəzlərinin Bakıda nümayəndəlikləri fəaliyyət göstərir ki, bunların da çox hissəsi turoperator funksiyasını yerinə yetirirlər. Bu nümayəndəliklər reklam, informasiya, bələdçi xidmətləri də göstərirlər.

Azərbaycanın turizm xidmət bazarında turoperatorlarla yanaşı kiçik sahibkarlıq fəaliyyəti də əhəmiyyətli rola malikdir. Turizmdə kiçik sahibkarlıq fəaliyyəti istirahət mərkəzlərin, motel, kempinq və digər yerləşmə müəssisələrini daha çox əhatə edir. Araşdırmalar və statistik təhlillər göstərir ki, Quba-Xaçmaz regionunda kiçik sahibkarlara məxsus olan 17 yerləşmə müəssisəsi, 100-dən çox iaşə obyekti fəaliyyət göstərirsə, bu göstəricilər Şəki-Zaqatalada müvafiq olaraq 14 və 36, Gəncə-Qazax regionunda 19 və 54, Lənkəranda 16 və 20-dən çoxdur. Kiçik sahibkarlara məxsus olan iaşə obyektləri əsasən istirahət mərkəzlərinin yaxınlığında, yol kənarlarında yerləşdirilmişdir. Bununla yanaşı, dörd və üç ulduzlu mehmanxanaların 56%-i kiçik sahibkarlığa məxsusdur.

Beynəlxalq təcrübədə yerləşmə müəssisələrinin təsnifatında mehmanxana və onun daxilində turist, kurort mehmanxanası ayrılır. Bununla yanaşı, yerləşmə müəssisələrinin motel, kempinq, rotel, flotel, flaytel, botel, turist bazası, turist sığınacaqları, bunqalo və s. tipləri vardır. Mehmanxana müəssisələri göstərdikləri xidmətin səviyyəsinə görə təsnifatlaşdırılır və kateqoriyalara bölünür.

2000-ci ildən sonra respublikamızda yerləşmə müəssisələri şəbəkəsi inkişaf etməyə başlamışdır. Bu da ölkədə iqtisadi inkişaf, əhalinin gəlir səviyyəsinin yüksəlməsi, xarici vətəndaşların ölkəyə axını, turizm və istirahətə tələbatın artması ilə izah olunur. Yerləşmə müəssisələrinə dair məlumatların təhlili göstərir ki, 2001-ci ildə həmin obyektlərdə nömrələrinin sayı 9403-ə çatırdısa, bu göstərici 2011-ci ildə 25400 təşkil etmişdir.

Yerləşmə müəssisələrinin çoxu turizmin inkişafı üçün əlverişli şəraiti olan Quba-Xaçmaz, Gəncə-Qazax, Lənkəran regionlarındadır. Quba-Xaçmazda yerləşmə fondunun dəyişməsi 2003-cü illə müqayisədə 18 dəfə, Gəncə-Qazaxda 5,9 dəfə, Lənkəranda 3,3 dəfə artmışdır. Araşdırmalar

göstərir ki, bölgələrdə yerləşmə müəssisələrinin sayının artması birbaşa istirahət yerlərinin genişlənməsi ilə bağlı olmuşdur. Azərbaycanda dörd və üç ulduzlu mehmanxanalər, otel və motellər daha çox yayılmışdır. Mehmanxana xidmətində olan ümumi yerlərin sayının 63%-i dörd və üç ulduzlu otellərin payına düşür.

Apardığımız tədqiqatlar göstərir ki, yerləşmə müəssisələri illik gəlirlərinin 72-85%-ni istirahət mövsümündə əldə edirlər. Mövsümlərarası dövrdə isə Bakı şəhəri istisna olunmaqla, yerləşmə müəssisələrinin əsas gəlirləri tranzit turlar, müxtəlif kütləvi tədbirlər, xüsusilə restoran xidmətlərindən əldə olunur.




**Şəkil 2. Mehmanxana xidmətləri fəaliyyətindən əldə olunan gəlir (%-lə)**

Mehmanxanalar üzrə əldə olunan gəlirlər 60,9 mln. manat təşkil edir ki, bu da bütövlükdə yerləşmə müəssisələrinin əldə etdiyi gəlirlərin 91,8%-nə bərabərdir. Təhlildən aydın olur ki, yerləşmə müəssisələrində nömrələrin satışından əldə olunan gəlirlər 47,4 mln. manat və ya 72% təşkil edir. Müalicə xidmətlərindən gəlirin az olması, yerləşmə müəssisələrində

istirahət və əyləncə təşkili ilə bağlıdır. (şəkil 2).

Daxili turizmdə iştirak edən ölkə vətəndaşlarının xeyli hissəsi istirahət və əyləncəyə üstünlük verir. Belə ki, daxili turizmdə iştirak edən ölkə vətəndaşlarının 61,1 min nəfəri istirahət və əyləncə, 39,7 min nəfəri işgüzar səfərlər, 17,6 min nəfəri müalicə məqsədli olmuşdur. Bununla yanaşı kempinq və motellərdə istirahət edən ölkə vətəndaşlarının 12,9 min nəfərinin istirahət və əyləncə, 2,0 min nəfəri isə işgüzar məqsədli olmuşdur. Apardığımız təhlil sübut edir ki, ölkədə turizmin istirahət və əyləncə növü daxili turizm hərəkatında mühüm rol oynamaqdadır. Əhalinin turizmin digər növləri olan ekoturizmə, kənd turizminə, müxtəlif səyahətlərə və ekskursiyalara marağını artırmaq məqsədilə geniş təbliğat işlərinin aparılmasına ehtiyac vardır.

Daxili turizmdə avtomobil nəqliyyatı ilə daşınmalar üstünlük təşkil edir. Bölgələr üzrə istirahət və turizm mərkəzlərinə gedən avtomobil xətləri əsasən III və IV kateqoriyaya aid olan birtərəfli asfalt örtüklü yollardır. Avtomobil yollarının bərpasına və yenidən təmir olunmasına ehtiyac vardır. Bu sahədə irimiqyaslı yenidənbərpa işlərinə və yeni yolların çəkilməsinə başlanılmışdır. Ölkənin dəmir yollarında yeni sürət qatarlarının istismara buraxılması, Abşeronun dairəvi elektrik qatarlarında komfort şəraitin yaradılması turistlərin bu nəqliyyatdan geniş istifadəetməsinə səbəb ola bilər. Respublikada kruizləri Xəzər dənizi ilə yanaşı, Kür çayında da inkişaf etdirmək mümkündür. Azərbaycan Xəzər dənizi vasitəsilə Qazaxıstan, Türkmənistan, İranla əlaqə saxlaya bilir. Xəzər dənizində Azərbaycan, Qazaxstan, Türkmənistan və İranın müvafiq limanlarına kruizlərin təşkili mümkündür ki, bunların da əsas istiqamətləri "İpək Yolu"nun bərpası proqramı çərçivəsində həyata keçirilə bilər. Yerli kruizlər Bakı-Liman (Lənkəran) istiqamətində "balıq və kürü" turları adlandırıla bilər. Bu kruiz zamanı turistlər səhər və günorta yeməyi ilə təmin olunmalı, əyləncəli proqramlar ilə müşayət edilməlidir (Şəkil 3).

Respublikamızın xidmət sahələrinin reklam bazarında turməhsulun reklamı az olsa da, iaşə müəssisələri və digər restoranların reklamı geniş yayılmışdır. Apardığımız araşdırmalara görə xidmət sahəsində reklama il ərzində 1,8 mln. ABŞ

doll. maliyyə vəsaiti yönəldilir ki, bunun da 440 mini turizm sənayesinin payına

Respublikamızın xidmət sahələrinin reklam bazarında turməhsulun reklamı az olsa da, iaşə müəssisələri və digər restoranların reklamı geniş yayılmışdır. Apardığımız araşdırmalara görə xidmət sahəsində reklama il

ərzində 1,8 mln. ABŞ doll. maliyyə vəsaiti yönəldilir ki, bunun da 440 mini turizm sənayesinin payına düşür. O cümlədən, restoran xidmətlərinin reklamına sərf olunan vəsaitlər ümumi sosial xidmət üzrə reklamın 68%-ni təşkil edir.

Dövlət Proqramına uyğun olaraq, əsas və əlavə turist marşrutlarının keçdiyi məntəqələrin səciyyəsi verilmiş və marşrutun seçilməsi əsaslandırılmışdır. Turist marşrutları hazırlansa da, onların keçdiyi ərazilərdə müvafiq infrastrukturun olmaması bu marşrutların tam fəaliyyətinə imkan vermir. Mövcud marşrutların seçilməsində ərazinin təbii-coğrafi xüsusiyyətləri nəzərə alınmaqla yanaşı tarixi-etnoqrafik amillər də əsas götürülmüşdür. Əsas və əlavə turist marşrutlarının tərkibində yerli əhəmiyyətli marşrutların ayrılması da mümkündür ki, bu da daxili turizmin inkişafı üçün əlverişli şərait yaradır.

Daxili turizm bazarında bölgələrinin rolunun üstün olması və yeni tikilən yerləşmə müəssisələrinin regionların əksəriyyətini əhatə etməsi bu sahənin prioritet olmasına şərait yaratmışdır. Daxili turizmin strateji planlaşdırılmasında aşağıdakı amillərin əsas kimi qəbul edilməsi vacibdir:

- turizm potensialından səmərəli istifadə etməklə, ölkənin ümumi iqtisadi inkişafında onun rolunun artırılması;
- turizmin sosial-iqtisadi əhəmiyyətini artırmaq məqsədilə regionların rekreasiya potensialının dövriyyəyə cəlb edilməsi fəaliyyətinin gücləndirilməsi;
- daxili turizmdə marketinq fəaliyyətinin genişləndirilməsi və turizm bazarında tələb-təklifin öyrənilməsi;
- daxili turizmin maliyyə imkanlarının artırılması məqsədilə yerli və xarici sərmayədarların cəlb olunması üçün əlverişli investisiya mühitinin yaradılması;
- daxili turizmdə idarəetmənin təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinin, bu sahədə yerli əhalinin rolunun artırılması.

Araşdırmalar göstərir ki, respublikada daxili turizmdə təklif olunan xidmətlərin sayı az olduğundan, tam pansion təşkil etmir. Turpaketdə qidalanma xidmətlərinin turistlərin öz vəsaiti hesabına ödənilməsi ölkənin əksər istirahət mərkəzlərində geniş yayılmışdır. Buna görə də əhalinin kütləvi istirahəti üçün ölkədə fəaliyyət göstərən turizm mərkəzləri cəlbedici olsa da, qiymətlərin yüksək olması və tam pansion xidmətlərinin göstərilməməsi onlardan istifadəni məhdudlaşdırır.

Şəkil 2.

**Şəkil 2.**

Yerli turistlərə istiqamətlənən turpaketdə ekskursiyaların, tibbi xidmətlərin nəzərə alınmaması mənfi hallardan sayılır. Turpaketdə qiymətlərin 70-80%-i yerləşmə müəssisələrində olan xidmətlərə görə fərqlənir. Əgər turpaketə qidalanma da daxil olarsa, qiymətlər 1,5-2 dəfə yüksəlir və yerləşmə xidmətləri ilə birlikdə 90-95% təşkil edir. Müqayisə üçün qeyd edək ki, Türkiyədə turpaketə daxil olan xidmətlərin 50-60%-i yerləşmə və qidalanma müəssisələrinin payına düşür. Həmçinin, Türkiyədə turpaketə daxil olan xidmət növləri qiymətindən asılı olaraq 16-42%-ə qədər dəyişir.

Turizm sahəsində vergilərin azaldılması da bu siyasətin tərkib hissəsini təşkil edir. Hazırda ölkədə turizm lisenziyası 5500 manat, gəlir vergisi isə 80% təşkil edir. Turizm sənayesi yüksək inkişaf etmiş Fransada sonuncu göstərici 12% (digər sahələrdə 22%), İspaniyada 10%, Türkiyədə 14% təşkil edir.

MDB ölkələrində turizm fəaliyyətində vergilər 10-20%-dən çox deyildir. Bu baxımdan respublikamızda da turizm sektorunda vergilərin azaldılması, bu sahədə kiçik və orta sahibkarlığın inkişafını sürətləndirə bilər.

Turizm sahəsində vergilərin azaldılması da bu siyasətin tərkib hissəsini təşkil edir. Hazırda ölkədə turizm lisenziyası 5500 manat, gəlir vergisi isə 80% təşkil edir. Turizm sənayesi yüksək inkişaf etmiş Fransada sonuncu göstərici 12% (digər sahələrdə 22%), İspaniyada 10%, Türkiyədə 14% təşkil edir. MDB ölkələrində turizm fəaliyyətində vergilər 10-20%-dən çox deyildir. Bu baxımdan respublikamızda da turizm sektorunda vergilərin azaldılması, bu sahədə kiçik və orta sahibkarlığın inkişafını sürətləndirə bilər.

Son illər turizm-istirahət müəssisələri genişlənsə də, onlarda qiymətin yüksək olması, əhalinin kütləvi hissəsinin maraqlarını təmin etmir. Buna görə də ölkə əhalisinin kütləvi istirahətini təmin etmək üçün sosial turizmin inkişaf etdirilməsi vacibdir. Çünki, respublikamızda sosial turizmin inkişafı üçün əlverişli iqtisadi mühit mövcuddur. Bu, əhalinin pul gəlirlərinin son illər 25-27% artması, onların ümumi gəlirlərində ərzaq məhsullarının payının azalması, istirahətə maraqlarının artması ilə izah olunur. Turizm sənayesində kiçik və orta sahibkarlığa vəsaitlərin ayrılması əsasən regionlarda tikilən yerləşmə müəssisələrinə, kiçik istirahət zonalarına yönəldilir. Belə ki, 2004-cü ildə turizm sənayesinə 3,5 mln. manat, 2006-cı ildə isə 6,5 mln. manat, 2012-ci ildə isə 14,2 mln. manat vəsait ayrılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin təqdimatı ilə İqtisadi İnkişaf Nazirliyinin sahibkarlığın inkişafına yardım fondundan turizm

sahəsində fəaliyyət göstərən 50 kiçik və orta sahibkara vəsait ayrılmışdır. Bu vəsaitlərin əsas hissəsi kiçik otellərin və istirahət mərkəzlərinin tikintisinə sərf edilmişdir. Bununla yanaşı, 2006-cı ildən başlayaraq müxətlif turoperatorlar, turizm obyektləri də dövlətin güzəştli kreditlərindən yararlana bilmişlər. Son illər 5 turist obyekti, 7 turoperator, 2 mehmanxana dövlətin güzəştli kreditlərindən istifadə etmişdir. Dövlət investisiyalarının turizm sənayesinə yönəldilməsi aşağıdakı istiqamətlərdə aparıla bilər:

- Kiçik və orta biznes sahəsinə büdcədən ayrılan vəsaitlərin yönəldilməsində turizm şirkətlərinin fəal iştirakının təmin olunması;
- İnfrastruktur sahələrinin yeniləşdirilməsinə dövlət tərəfindən investisiyaların artırılması;
- Turizmin sosial-iqtisadi inkişafda əsas rol oynadığını nəzərə alaraq, dövlətin bölgələrə istiqamətləndirdiyi maliyyə vəsaitinin bir hissəsinin bu sahəyə yönəldilməsi;
- Dövlətin maliyyə və vergi siyasətində stimullaşdırıcı tədbirlərin fəal turizmlə məşğul olan, yeni yerləşmə müəssisələri, turist obyektləri inşa edən təşkilatlara yönəldilməsi;
- Turizmin inkişafı iqtisadiyyatın prioritet istiqaməti olduğuna görə rekreasiya ehtiyatlarının proqnozlaşdırılması və qiymətləndirilməsinə dövlət yardımlarının ayrılması və s.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

• Ölkədə mikroiqlim şəraiti turizm mövsümlüyünü aradan qaldırmağa imkan versə də, bu imkanlardan yetərincə istifadə olunmur. Mövsümlərarası dövrlərdə beynəlxalq və respublika miqyasında kütləvi tədbirlərin keçirilməsi, həmçinin təbiət turizminin inkişaf etdiyi dağlıq ərazilərdə qış turizmi üçün mobil infrastrukturun yaradılması mövsümlük problemini aradan qaldıra bilər.

• Azərbaycanda Milli irs nümunələrinin, tarixi memarlıq abidələrinin zənginliyini nəzərə alaraq, maddi və mənəvi irs nümunələrinin turizmdə istifadəsi məqsədilə bayramların, kütləvi tədbirlərin keçirilməsi, reklamı genişləndirilməlidir. İrs nümunələrinin daha çox cəmləşdiyi yaşayış məntəqələri turist marşrutlarına salınmış, onlarla bağlı turlar işlənilmiş və ənənəvi sənətkarlığın stimullaşdırılması istiqamətləri göstərilmişdir.

• Daxili turizmdə yerləşmə müəssisələri ilə turizm agentlikləri arasında əlaqələr genişləndirilməli, tələb və təklif uyğunlaşdırılmalıdır. Bunun üçün regionlardakı yerləşmə müəssisələri kooperativ və topdansatış qiymətlərlə turist şirkətləri ilə müqavilə bağlamalıdır.

• Kurort təsərrüfatının inkişafına dair dövlət proqramlarına əsaslanaraq balneoloji ehtiyatlatda səmərəli istifadə etməklə kompleks kurort-turizm mərkəzlərinin ərazi təşkilinin təkmilləşdirilməsi, həmçinin, SPA xidmətlərinin kurort müəssisələri ilə yanaşı resort hotellərdə, istirahət mərkəzlərində tətbiqini məqsədəuyğun sayırıq.

• Ekoloji turizmin, xüsusilə kənd turizminin inkişafı məqsədilə turizm potensiallı kənd yaşayış məntəqələrinin monitorinqi aparılmalı, hədəf marketinqi seçilməli, icma nümayəndələri ilə turizm şirkətləri arasında əlaqə yaradılmalıdır. Bu sahənin inkişafına QHT və yerli idarəetmə orqanlarının cəlb olunması, bələdiyyə torpaqlarında kiçik yerləşmə müəssisələrinin tikilməsi də məqsədəuyğundur.

• Azərbaycanın turizm bazarında sahibkarlıq xidmətləri sahəsində kiçik müəssisələrin payı üstünlük təşkil edir. Sahibkarlıq subyektləri kimi fəaliyyət göstərən turoperator və turagentliklər müasir turizmə daha çox meyillidirlər, bu isə daxili turizmdə onların fəallığını zəiflədir. Bu problemləri aradan qaldırmaq üçün şirkətləri daxili turizm fəaliyyətinə cəlb etmək, onların regionlardakı otellərlə əlaqəsini genişləndirmək vacibdir.

• Regionlarda ekoloji, ekskursiya və digər turizm xidmətləri təklif edən sahibkarlıq subyektlərinin olmağı daxili turizmin inkişafı üçün mühüm şərtdir. Daxili turizmdə istirahət və sağlamlığın bərpası üstünlük

təşkil etdiyinə görə, bölgələrdə yüksək kateqoriyalı hotellərlə yanaşı, turist tipli üç ulduzlu yerləşmə müəssislərinin genişləndirilməsi kütləvi turizm maraqlarını ödəməyə imkan verə bilər.

- Azərbaycanda turizm bazarının modeli kimi kənd turizmi, ekoturizm, etnoturizm, dağ-dəniz layihələrinin həyata keçirilməsini təklif edirik.

## Dissertasiya işinin mövzusu üzrə çap olunmuş elmi işlərin siyahısı:


1. Adilov A.O. "Azərbaycan Respublikasında daxili turizmin inkişafında kurort-sanatoriya fəaliyyətinin rolu". Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XI cild. Bakı, 2006, s.336-341.
2. Adilov A.O. "Turizmdə ərazi yüklənməsi və ekoloji vəziyyət. Azərbaycan təbiətinin ekocoğrafi problemləri." Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XII cild, Bakı, 2008, s.430-434.
3. Adilov A.O. "Azərbaycanda daxili turizmin inkişaf perspektivləri." AMEA-nın İqtisadiyyat İnstitutu, Milli iqtisadiyyatın problemləri. Məqalələr toplusu, II Buraxılış, Bakı, Elm-2008, s.203-211.
4. Adilov A.O. "Milli parklardan ekoturizmdə istifadə imkanları." BDU-nun "Xəbərləri" Təbiət elmləri, №4.2008, s.157-161.
5. Adilov A.O. "Azərbaycanda yerləşmə müəssisələrinin müasir vəziyyəti." BDU-nun "Xəbərləri" Təbiət elmləri №3.2008, s.218-223.
6. Adilov A.O. "Azərbaycanda milli turizm reklamı." Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri, "Coğrafiyanın müasir problemləri" Ümummilli liderimiz, Müstəqil Azərbaycan Dövlətinin qurucusu Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunur, Bakı, 2008, s.430-450-455.
7. Adilov A.O. "Azərbaycanda daxili turizmin inkişafında ekoloji problemlər." Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri XIV cild. Bakı, 2009, s. 276-278.
8. Adilov A.O. "Azərbaycanda turizm xidmətləri bazarı." Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri, II cild. Bakı, 2009, s. 606-610.

9. Адилов А.О. “Transport services in the tourism market of Azerbaijan” Каспийский регион: политика, экономика, культура. Астрахань, 2009 № 2 (19) с.16-21.

10. Adilov A.O. “Azərbaycanda daxili turizm bazarının müasir vəziyyəti”. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri XVII cild. Bakı, 2011, s. 249-258.

**Адил Огтай оглы Адилов**

# ВНУТРЕННИЙ ТУРИЗМ И ПЕРСПЕКТИВЫ ЕГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## РЕЗЮМЕ

Объектом диссертации является изучение внутреннего туризма и перспектив его развития в Азербайджане. Основной целью исследования является определение возможностей внутреннего туризма в республике, основываясь на методологические принципы эффективного использования туристских ресурсов, а также выявление направлений и перспектив развития этой области.

Научная новизна диссертационной работы заключается в следующем: дана оценка спроса на туристском рынке, определены направления использования природных и историко-культурных ресурсов, рентные показатели во внутреннем туризме, выявлены пути оптимизации отелей, предлагаемых комплексных курортных услуг, использование туристских ресурсов и усовершенствование услуг, дана модель различных отраслей туризма.

Диссертационная работа состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка использованной литературы.

В первой главе анализируются теоретические и методологические особенности формирования туристского рынка. Отражены основные направления изучения туристского рынка, а также мнения специалистов, проводивших исследования в этой области. Указаны этапы развития туризма в Азербайджане и их основные особенности, исследованы туристско-рекреационные ресурсы.

Во второй главе анализируются экономико-географические особенности формирования и динамика развития внутреннего туристского рынка. Вместе с этим, указаны бальнеологические туристские ресурсы и современное состояние их использования, а также особенности развития курортного хозяйства. Дается анализ нынешнего состояния изучаемого туристского рынка с точки зрения развития экотуризма. Исследована динамика развития экологического и сельского туризма.

В третьей главе дается анализ отельных услуг, центров отдыха и транспортной инфраструктуры, которые обусловливают развитие внутреннего туризма в Азербайджане. Наряду с указанием существующих туристских маршрутов, предлагаются новые маршруты в регионах, функционирование которых может привлечь большее число туристов. Перспективы внутреннего туризма исследованы по отдельным видам данной отрасли. Указаны перспективы развития курортного туризма, туризма с целью отдыха, экологического и сельского зеленого туризма.

По теме диссертации опубликовано 10 научных работ.

**Adil Oktay Adilov**

## DOMESTIC TOURISM AND ITS DEVELOPMENT PROSPECTS IN AZERBAIJAN REPUBLIC

## SUMMARY

The subject of the dissertation is the study of domestic tourism and its prospects in Azerbaijan. The main objective of the study is to determine the possibilities of domestic tourism in the countryon the basis of methodological principles of effective use of tourism resources as well as the identification of priorities and prospects of development in this area.

The scientific novelty of the thesis is the following: demand in the tourist marketis estimated; the priorities of the use of natural, historical and cultural resources as well as rental indicators in domestic tourism are defined; ways of optimization of the hotels andthe offeredcomplete spa services as well as the use of tourist resources and improvement of services are identified; the modelsof different areas of tourism aregiven by the author.

The dissertation consists of the introduction part, the three chapters, the conclusions and recommendations, and also the list of references.

The first chapter deals with the analysis of theoretical and methodological features of the formation of tourist market. It reflects the main directions of studies carried out on tourism market, as well as the opinions of specialists who conducted researches in this area. The stages of the development of tourism in Azerbaijan with their specificities are shown. Tourism and recreational resources are studied.

The second chapter includes the analysis of the economic and geographic features of the formation, and also the development of tourism market. Besides with these, balneologic tourism resources and the state of their use as well as the features of the development of resort industry are shown. The current state of the studied tourism market is analyzedin term of development of ecotourism. The dynamics of the development of ecological and rural tourisms is studied.

The third chapter provides an analysis of hotel services, leisurecenters and transport infrastructure which are affecting domestic tourism in Azerbaijan. Along with an indication of the existing tourist routes, the new routes and their directions in the regions are given. It is noted that the functioning of these routes would allow attract much more tourists. Prospects of development of SPA tourism, leisure tourism, eco-tourism and rural tourism are shown.

10 scientific papers on the topic of dissertation have been issued.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**АДИЛ ОГТАЙ оглы АДИЛОВ**

# ВНУТРЕННИЙ ТУРИЗМ И ПЕРСПЕКТИВЫ ЕГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии по географии

**БАКУ – 2013**